Aypara Ayxan (Mehamanova Aypara Murtuz qızı) Sumqayıtda rəssam ailəsində dünyaya göz açıb. 13 yaşından şeir yazmağa başlayıb. Bir neçə şeirinə Türkiyədə mahnı bəstələnib.



■ Aypara Ayxan

## ADAM

Bənzəmirsən özünə, bu sən o sən deyilsən,
Hanı o tanıdığım arxamdakı dağ adam.
Saçımdan bir tel düşsə, özünə dərd eyləyən,
Sevincimə sevinən, qəmimə ortaq adam.

Darıxmayırsanmı heç, düşmürəmmi yadına?
Yoxsa duyğun qalmayıb bu dəlisov qadına,
İyirmi dörd saat atıb cəhənnəmin oduna,
Çəkdirəkmi bir belə dağ üstünə dağ, adam?

Qəsd etdiyin qəlbimdir, orda neçə arzu var,
Yetər, qədər biçməyə fələk adlı dərzi var,
Əzabı da vermənin bir üsulu, tərzi var,
Dərdin aşır boyumu, etmirsənmi ağ, adam?!

Həyatımdan gedəndən düzənim alt-üst olub,
Bədənim yorğun düşüb, fikirlərim süst olub,
Həsrətinlə savaşda ürəyim şikəst olub,
Bu nə cür bir imtahan, bu nə cür sınaq, adam?!

Niyə o barmaqların saçıma deyil daraq,
Zülmət gecələrimə varlığın tutmur çıraq,
Bilmirsənmi bu qəlbdə havalar keçir quraq,
Arada yağış olub üzərimə yağ, adam!

Kədər qəpik-quruşdur, xoşbəxtliksə çox baha,
Bir ucuz ölüm gəlsin qovuşdursun Allaha,
Mən çıxmasam da olar, eybi yoxdur, sabaha,
Təki sənin həmişə canın olsun sağ, adam!

* * *

Yenə daraq əllərini gəzdirirsən saçlarımda,
Xəyalınla danışıram yenə qara basır məni.
“Gözləməyin əbəs” deyə, - ağlım diktə edir amma,
Qəlbim hər gün sürüyərək bir ümiddən asır məni.

Ümidin dar ağacında gözləməkdən ağır nə var?
Uzandıqca hey uzanır bu həsrətin qarğa ömrü.
Yarpaq-yarpaq gəncliyimi oğurlayır günlər, aylar
Qamçılayır zaman atın, sürüb gedir yorğa ömrü.

Ürəyimə hökm edəndən inancımı paraladın,
Məni sənə tapındırdın, Tanrımasa asi etdin.
Həsrətinlə savaşdırıb, hicranınla yaraladın,
Mərtəbəmi yüksəldərək eşq yolunda qazi etdin.

Kaspi 2019.- 2-4 noyabr.- S.23.